

# Gündəlik həyatımda Qlobal məqsədlərlə bağlı hansı işləri görmək olar?

## Fənn

Həyat bilgisi

## Təlim nəticəsi

- Dayanıqlılıq mövzusunda layihə hazırlamağın ilkin addımlarında Qlobal məqsədlərə nail olmağın kreativ yollarını müəyyənləşdirə biləcək, bir-birlərinin ideyalarını necə təkmilləşdirəcəklərini anlayacaq və kreativlikdən istifadə etməyi bacaracaqlar.

## Qeyd

Bu dərs planı “Qlobal məqsədlərə nail olmaq üçün birgə iş” dərs planından sonra tədris olunarsa, daha yaxşı nəticələr əldə olunacaq.

## Hazırlıq:

Aşağıdakı ləvazimatları hazırlayın:

- 17 Qlobal məqsəd əks olunmuş cədvəl (Əlavə 3-ə baxın)
- Əvvəlcədən qatlanıb hazırlanmış kağız təyyarələr (Əlavə 1-ə baxın)
- Hər bir iştirakçı üçün 1 ədəd qələm
- Canlı musiqi
- Dərs başlamazdan əvvəl çoxlu kağız təyyarələr düzəldin.
- Hər bir iştirakçıya 1 ədəd qələm və 1 ədəd təyyarə verin.

Ümumi vaxt:

**60** dəq.

Yaş:

**8-14** yaş

"Dünyanın ən böyük dərsi" - Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin - "Dayanıqlı inkişaf naminə tərəfdaşlıq" məqsədinin mühümlüyünün canlı sübutudur və onun gerçəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.

Layihənin təşkilatçılar qrupuna təşəkkür edirik:

Powered By:

Distributed By:

Translated By:

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər :

## Giriş

**5** dəq.

Şagirdlərə izah edin ki, tapşırığın məqsədi “Qlobal məqsədlər” kimi də adlandırılan Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı kreativ yollar təklif etməkdir. Onlara başqalarının ideyaları əsasında daha yaxşı ideyalar yarana biləcəyini izah edin.

## Dayanıqlı inkişaf üçün təhsil – Uşaqlar danışsın!

**10** dəq.

Şagirdlər dünyanın hər bir yerindən olan uşaqların dayanıqlılıq ilə bağlı mesajlarını paylaşdıqları qısa bir video izləyirlər. Bu, böyük bir ekranda, kompüterdə göstərilə bilər və yaxud qrup şəklində mobil telefon və ya tabletdə də izlənilə bilər. https://www.youtube.com/watch?v=F-WI3crN8eU.

## İdeyalarınızı “qanadlandırın”

**40** dəq.

Hər şagirdə birini verməklə kağız təyyarələri paylayın. Birinci məqsəddən başlayın və ilk məqsədi həyata keçirmək üçün şagirdlərin öz təyyarələri üzərində bir ideya yazmalarına nail olun. Misal üçün, 12-ci Məqsəd olan “Düşünülmüş istehlak və istehsal” üçün belə bir ideya vermək olar – həmişə vərəqin hər iki üzündən də istifadə etmək; digər ideya isə bu ola bilər – məktəb bostanını suvarmaq.

Şagirdlərə belə bir məlumat verin: “Biz bu təyyarələri işə salmaq üzrəyik. Hər hansı bir təyyarə əlinizə keçdikdə üzərindəki yazıları oxuyun və əlavələr edin. Fərqli düşünməyə çalışın və kreativ, yaxud qeyri-adi fikir əlavə edin. Sonra təyyarəni yenidən uçurun!”

Üçə qədər sayın və təyyarələri havaya atın! Bir az canlı musiqi açmaqla şən ab-hava yaradın, misal üçün, Qlobal məqsədlər üçün hazırlanmış Afrika üçün mahnı - https://youtu.be/iDhP41MGVCM

Bir sıra “uçuşlardan” sonra musiqini dayandırın və hər iştirakçıdan bir təyyarə gətirməsini istəyin. Hər bir iştirakçı növbə ilə təyyarənin üzərində nə yazıldığını ucadan oxuyur.

Şagirdlərin üzərində işləyə biləcəkləri potensial layihələrin siyahısını tərtib edin.

Təyyarə dəstəsinin yenisini paylayın. Hər bir Qlobal məqsəd üçün bu fəaliyyəti təkrar edin.

## Differensiasiya və alternativ tapşırıqlar

Əgər vaxtınız məhduddursa, 17 məqsədi 6 mövzu üzrə qruplaşdıra bilərsiniz (Əlavə 2-yə baxın) və ardıcıl olaraq hər məqsəd üzrə yox, hər mövzu üzrə tapşırığı həyata keçirin.

## Təlim fəaliyyəti

**10** dəq.

Dərsin sonunda şagirdlər tapşırığın nəticəsi olaraq ərsəyə gələn potensial layihələr siyahısını gözdən keçirirlər. Şagirdlər üzərində işləyə biləcəkləri hansı ideyanı sinifləri və ya məktəbləri üçün daha vacib hesab etdiklərinə qərar verirlər və necə başlayacaqlarına dair bəzi fikirlər söyləyirlər.

## Digər resurslar

Dayanıqlı inkişaf üçün təhsil ilə əlaqədar təlim və tədris metodlarının istifadəsinə dair əlavə resurslar burada mövcuddur: http://en.unesco.org/themes/education-sustainable-development

Dayanıqlı inkişaf üçün təhsil ilə əlaqədar təlim və tədris metodları ilə bağlı əlavə resurslar üçün aşağıda göstərilən təlim materiallarına göz atın:

- Dayanıqlı inkişaf üçün təhsilə dair alətlər dəsti (http://unesdoc.unesco.org/images/0015/001524/152453eo.pdf)
- Dayanıqlı inkişaf üçün təhsilə dair qaynaqlar kitabı (http://unesdoc.unesco.org images/0021/002163/216383e.pdf)
- Dayanıqlı inkişafın araşdırılması: Çoxperspektivli yanaşma (http://unesdoc.unesco.org/images/0021/002154/215431E.pdf)
- Dayanıqlı gələcək naminə təlim və tədris (http://www.unesco.org/education/tlsf/)

“Dayanıqlı inkişaf üçün təhsilə dair alətlər dəsti”ndə mövcud olan “İdeyalarını qanadlandırmaq”adlı tapşırıqdan götürülmüşdür. UNESCO: Paris. 2006 pp. 95-96

# Kağız təyyarənin qatlanması:



# Qlobal məqsədləri 6 mövzu üzrə qruplaşdırmaq:

| Mövzu | Daxil olunacaq məqsədlər |
|---|---|
| **Yoxsulluq** | 1, Yoxsulluğa son<br>10, Qeyri-bərabərliyin azaldılması |
| **Sağlamlıq və rifah** | 2, Aclığa son<br>3, Sağlamlıq və rifah<br>6, Təmiz su və sanitariya |
| **Təhsil, bacarıq və iş imkanları** | 4, Keyfiyyətli təhsil<br>8, Layiqli iş və iqtisadi artım |
| **Ədalətli və təhlükəsiz dünya** | 5, Gender bərabərliyi<br>16, Sülh, ədalət və güclü institutlar |
| **Dayanıqlılıq** | 7, Sərfəli və təmiz enerji<br>9, Sənayeləşdirmə, innovasiya və infrastruktur<br>11, Dayanıqlı şəhərlər və icmalar<br>12, Düşünülmüş istehlak və istehsal<br>17, Məqsədlər naminə tərəfdaşlıq |
| **Ətraf mühit** | 13, İqlim dəyişikliyi ilə mübarizə<br>14, Su altında həyat<br>15, Yer üzündə həyat |


QLOBAL MƏQSƏDLƏR
1 YOXSULLUĞA SON
2 ACLIĞA SON
3 SAĞLAMLIQ və RİFAH
4 KEYFİYYƏTLİ TƏHSİL
5 GENDER BƏRABƏRLİYİ
6 TƏMİZ SU və SANİTARİYA
7 UCUZ və TƏMİZ ENERJİ
8 LAYİQLİ İŞ və İQTİSADİ ARTIM
9 SƏNAYELƏŞDİRMƏ, İNNOVASİYA və İNFRASTRUKTUR
10 QEYRİ BƏRABƏRLİYİN AZALDILMASI
11 DAVAMLI İNKİŞAF EDƏN ŞƏHƏRLƏR
12 DÜŞÜNÜLMÜŞ İSTEHLAK və İSTEHSAL
13 İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ
14 SU ALTINDA HƏYAT
15 YER ÜZÜNDƏ HƏYAT
16 SÜLH, ƏDALƏT və GÜCLÜ İNSTİTUTLAR
17 DAVAMLI İNKİŞAF NAMİNƏ TƏRƏFDAŞLIQ
QLOBAL MƏQSƏDLƏR